RAUF BƏHMƏNLİ

# AZƏRBAYCAN XALQ RƏQSLƏRİ



# AZERBAIJAN PEOPLE DANCE

*RAUF BƏHMƏNLİ*

# AZƏRBAYCAN XALQ RƏQSLƏRİ

"ADİLOĞLU" nəşriyyatı
BAKI-2002

**Redaktor:** **GÜLNAZ ABDULLAZADƏ**
*Bakı Musiqi Akademiyasının Elmi Tədqiqat və yaradıcılıq işləri üzrə prorektoru, bəstəkar, Fəlsəfə elmləri doktoru, professor.*

**Rəyçilər:** **VASİF ADIGÖZƏLOV**
*Bəstəkarlar İttifaqının İdarə Heyətinin I katibi, Respublikanın xalq artisti, professor.*

**ƏMİNƏ DİLBAZİ**
*Respublikanın xalq artisti, baletmeyster - rəqqasə.*

**ELNARƏ DADAŞOVA**
*Bəstəkar, Bakı Musiqi Akademiyasının dosenti.*

*Oxucularımız bu məcmuədə 150 Azərbaycan xalq rəqs nümunəsi ilə tanış olacaqlar. Təqdim olunmuş rəqslər 1983-cü ildən başlayaraq Azərbaycanın bir sıra bölgələrindən toplanmış, professional musiqiçilərin ifasından nota yazılmışdır.*

*Çox geniş yayılmış oyun havaları ilə yanaşı artıq yaddaşlardan silinməkdə olan rəqslərin olduğu kimi gələcək nəslə ötürülməsində kitabın böyük əhəmiyyəti olacaqdır. Əsasən, qədim rəqs havalarından ibarət olan bu məcmuə bütün musiqi ictimaiyyəti üçün, Bakı Musiqi Akademiyasının, eləcə də Orta İxtisas Musiqi məktəblərinin tələbələri üçün Azərbaycan xalq musiqisinin öyrənilməsində gərəkli mənbədir. Azərbaycan xalq rəqsləri bəstəkarlarımızın yaradıcılığında geniş istifadə olunacaq, rəqs kollektivlərinin repertuarını bəzəyəcəkdir.*

R $\frac{0832578653}{121\text{-}2002}$ sifarişlə

© R. Bəhmənli

4

# ÖN SÖZ

"Azərbaycan Xalq Rəqsləri" məcmuəsi çoxillik axtarışların bəhrəsidir. Milli rəqslərimizin toplanması və araşdırılması işinin təməli 1983-cü ildə qoyulmuşdur. Qədim oyun havalarının öyrənilməsində atılan ilk addımlar S.Hacıbəyov adına Sumqayıt Orta İxtisas Musiqi məktəbindəki tələbəlik illərinə təsadüf edir. O illərdə adı dillər əzbəri olmuş, xalq rəqslərimizin mahir ifaçılarından **Əşrəf Əşrəfovun, Şəmsi İmanovun, Həsən Məhərrəmovun, Teyyub Dəmirovun, Məmmədağa Ağayevin** qramofon vallarını əldə etmək, onların ifa etdikləri rəqs havalarını dinləmək gələcəkdə bu sahənin daha dərindən öyrənilməsinə təkan verirdi.

Sumqayıt Orta İxtisas Musiqi məktəbində "Azərbaycan xalq çalğı alətləri ilə tanışlıq" fənnindən dərs deyən, ifaçılıq sənətində öz yeri və öz yolu ilə tanınan nəfəs alətlərinin virtuoz ifaçısı **Ələkbər Əsgərov** haqqında xüsusi qeyd olunmalıdır. Ələkbər müəllimin istər radio və televiziya ilə çıxışı, istərsə də toy şənliklərindəki ifası bütün musiqiçilərin diqqətini cəlb edirdi. Çünki Ələkbər Əsgərov sənəti o dövrdə Respublikamızın ərazisində yaşayan, Azərbaycan xalq rəqslərimizi səsləndirən bir sıra erməni musiqiçilərinin ifasını çox geridə qoyaraq Azərbaycanın ifaçılıq sənətini zirvələrə ucaltmışdır. Onun ifa etdiyi *"Vağzalı", "Uzundərə", "Mirzəyi", "Qazağı", "Keçiməməsi", "Şalaxo", "Qaytağı"* rəqsləri bu gün də təkrar olunmazdır.

1983 - 1985-ci illər tanınmış xanəndə **Qaraxan Behbudovun** dəvətindən sonra Azərbaycan Konsert Birliyindəki fəaliyyətlə, qastrol səfərləri ilə yadda qalmışdır. Qaraxan müəllimin rəhbərlik etdiyi ansamblın tərkibinə daxil olmaq gələcəkdə muğam dəstgahlarının, xalq mahnı və təsniflərinin, eləcə də diringi və xalq rəqslərimizin daha mükəmməl ifasına nail olmağa zəmin yaradırdı. Ansambl Azərbaycanın bir çox rayonlarında (Saatlı, Sabirabad. Kürdəmir, Ağsu, Ucar, Göyçay, Ağdam, Füzuli, Qubadlı) qastrol səfərlərində olmuşdur. Bu səfərlərdən ikisi daha yadda qalandır.

1984-cü ilin iyun ayında Qubadlı rayonunun Mirlər kəndində geniş proqramla çıxış edərkən konsertin sonunda tamaşaçıların xahişi ilə 48 yaşlı kənd sakini İdris kişi səhnəyə qalxdı. O özü ilə gətirdiyi qara zurnada qədim bir rəqs ifa etdi. Onun musiqisi çox ürəyə yatımlı idi. Konsertdən sonra İdris kişi ilə söhbət etdikdə məlum oldu ki, bu qədim rəqsin adı "**Təhməzi**"dir. Rəqsi öyrənib nota yazmaq məqsədilə İdris kişiyə müraciət etdikdə o, məmnuniyyətlə razı oldu və çox səbrlə rəqsi bir neçə dəfə təkrar ifa etməklə onun nota yazılmasına imkan yaratdı.

Yadda qalan səfərlərdən ikincisi Kürdəmir idi. Bu səfərin mühüm əhə-

miyyət kəsb etməsinin səbəbi zurna və balamanın çox mahir ifaçısı. Əməkdar Mədəniyyət İşçisi adına layiq görülmüş **Həsrət Hüseynovla** görüş idi. Ansamblın görüşünə gələn və konsertdə iştirak edən bu böyük el sənətkarı Qaraxan müəllimin ünvanına xoş sözlər söylədi, ansamıbla yeni-yeni səlınə uğurlarıı arzuladı. Bu görüş taleyin qisməti idi. Konsert qurtardıqdan sonra səmimi söhbət əsnasında gənc bir ifaçının onunla yaxından tanış olmaq, xalq rəqslərimiz haqqında deyəcəklərini bilmək, ifasında oyun havalarını dinləmək istəyini görən Həsrət müəllim bu arzunun gerçəkləşməsinə şərait yaratdı. Belə bir görüş artıq ertəsi gün 1984-cü il avqust ayının 18-də Kürdəmir şəhər Mədəniyyət Evində baş tutdu. Bu səmimi insanın qonağı olmaq, onun fantastik ifasını eşitmək, Həsrət Hüseynov sənətinin sehrini duymaq böyük xoşbəxtlik idi. Onun ifasında səslənən qədim xalq rəqsləri əvvəlcə maqnitofon lentinə yazılmış, sonrakı illərdə nota köçürülərək məcmuəyə daxil edilmişdir. Bu rəqslər aşağıdakılardır:

*"Hacıcan", "Cığatayı", "Kömürtəpə", "Qaryağdı", "Kəndiri", "Cıdır", "Sarı başlıq", "Ağırlama", "Qədim şəşəngi", "Zorxana", "Atlanma", "Musaxanı".*

1989-cu ilə kimi artıq 20-dən çox xalq rəqsi toplanmışdır. Sonra bir müddət bu işə ara verilsə də, 1993-cü ildə artıq Bakı Musiqi Akademiyasının tələbəsi olarkən yenidən davam etdirilmişdir. Bu dəfə də atılan ilk addım uğurla nəticələndi. 1993-cü il mart ayının 4-də Qobustan rayonunun Duvannı qəsəbəsində yaşayan, məşhur zurna və balaman ifaçısı Əli Kərimovun (1874 - 1962) ən istedadlı tələbələrindən olan **İzzətalı Zülfüqarovla** görüş bütün ümidləri doğrultdu. Belə ki, onun ifasından çoxlu sayda rəqs musiqisi maqnitofon lentinə yazıldı və bu rəqslərin adları haqqında məlumatlar əldə olundu. Sonradan nota köçürülən həmin rəqslərdən *"Kəsmə", "Heyva gülü", "Çervon", "Bənövşə", "Xurcun", "Şamaxı", "Bağdagülü", "Alma gülü", "Yasəməni", "Niluferi", "Gəlin havası", "Cığ-cığa", "Əfruzə", "Müşkü", "Pambığı", "Səlvəri", "Çəhrayı", "Narıncı", "Tamara", "Pişro", "Balışı", "Sima", "Şamama", "Üç barmaq", "Pəhləvanı", "Məxməri", "Çəməni", "Ayşadı", "Mehribanı"* məcmuəyə daxil edilmişdir.

1995-ci il xalq rəqslərimizin toplanmasında ən məhsuldar illərdən oldu. Qaradağ rayonu Sahil qəsəbəsindəki 28 saylı Uşaq Musiqi məktəbində müəllimlik fəaliyyəti məhz həmin ildən başlandı. Artıq uzun illər bu məktəbdə işləyən mahir qarmon ifaçısı, bacarıqlı müəllim **Əsgər Əsgərəliyevlə** tanışlıq görülən işdə mühüm nəticələrin əldə olunmasına səbəb oldu. Bakının Qobu kəndində anadan olmuş, hal-hazırda Lökbatan qəsəbəsində yaşayan 51 yaşlı Əsgər müəllim xalq arasında tanınmış sənətkarlardan sayılır. Hələ cavan yaş-

larından müxtəlif rəqs kollektivlərində çalışmış bu mahir ifaçı milli rəqslərimizin dərin bilicilərindəndir. Oyun havalarının toplanması işinə köməklik göstərəcəyinə məmnuniyyətlə razılıq verən Əsgər Əsgərəliyevin ifasından bir ilə yaxın müddət ərzində 90-dan çox xalq rəqsi nota yazılmışdır. Onlardan *"Azərbaycan", "İnnabı", "Dilican", "Naz eləmə", "Xançobanı", "Qafqazı", "Tərəkəmə", "Tiflisi", "Darçını", "Lalə", "Naz-nazı", "Yaqutu", "Altı nömrə", Nabat xanım, "Brilyantı", "Qızıl gül", "Qıtqılıda", "Uzundərə", "Toy", "Şağani", "Novruzgülü", "Şəlalə", "Reyhanı", "Züleyxa", "Ulduz", "Keçiməməsi", "Şalaxo", "On dördü", "Qazağı", "Qəşəngi", "Bakı", "Səməni", "Yaylıq", "Duy-duy", "Xalabacı", "Aşxabadı", "Matanı", "Zibəndə", "Şərur", "Turacı", "Dərvişi", "Qusar-çay", "Kintovarı", "Mixəyi", "Çanax qala", "Çıraq qala", "Məhərrəmkənd", "Qars", "Mərcanı", "Mirvari"; "Çay dərəsi", "Yüz biri", "Beşaçılan", "Dərbəndi", "Almazı"* daha qədim tarixə malik olan rəqslərdəndir.

Bakı Musiqi Akademiyasının kitabxanasından əldə olunmuş **Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutu** tərəfindən "Elm" nəşriyyatında 1981-ci ildə çap olunmuş "Azərbaycan Xalq Musiqisi" kitabı musiqi folklorumuz haqqında zəngin məlumatlar açıqlayır. Kitabın 17-ci səhifəsində yazılır: "M.Maqomayevin əlyazmaları arxivində 300-dən artıq Azərbaycan xalq musiqi əsərləri nümunəsi saxlanmışdır. Bu yazıların bir hissəsi qaralama şəklindədir. Xalq mahnı və rəqs musiqisinin 100 nümunəsi "Azərbaycan Xalq Yaradıcılığı" (əlyazması) məcmuəsinə daxil edilmişdir". Bu məlumatla bağlı əlyazmalar arxivinə edilən müraciət yenə də öz bəhrəsini verdi. Buradan 8 xalq rəqsinin not musiqisi əldə olundu. Məcmuəyə daxil olan bu rəqslər aşağıdakılardır:

*"Ənzəli", "Naxçıvanı", Taciri, "Əndican", "Həngamə mey", "Şuşa", "Səlami".*

1996-cı ildə Radio və Televiziya Şirkətinin nəzdində fəaliyyət göstərən **Nəriman Əzimovun** rəhbərlik etdiyi **S.Rüstəmov adına xalq çalğı alətləri orkestrində** çalışan nəfəs alətləri ifaçısı **Bəhruz Zeynalovdan** bir neçə rəqs toplansa da, məcmuəyə yalnız bir rəqs — *"Cəngi"* daxil edilmişdir.

Qədim xalq rəqslərimizin adları haqqında, onların yaranma tarixi haqqında məlumatların əldə olunmasında 80 illiyini bu yaxınlarda qeyd etdiyimiz, rəqs sənətinin inkişafında böyük zəhmətləri olan nəcib, mehriban insan, Azərbaycanın xalq artisti, baletmeyster - rəqqasə **Əminə Dilbazinin** zəhməti əvəzsizdir. 1996-cı ildə Əminə xanıma müraciət etdikdə o, toplanmış xalq rəqslərini böyük maraqla, çox diqqətlə dinlədi və sonra məmuniyyətlə kömək edəcəyini bildirdi. O vaxtdan da çox böyük həvəslə öz yardımını göstərmişdir. Bu

günə kimi toplanmış 150 xalq rəqsi haqqında Əminə xanımın öz fikrini bilmək daha maraqlıdır:

*"Azərbaycan incəsənətinin əsas və qədim sahələrindən sayılan rəqs sənəti milli musiqi mədəniyyətimizin ən zərif incilərindəndir. Bu sənətin daha da yüksək zirvələrə ucalması qədim zamanlardan bu günə kimi qorunub saxlanılan, hər birinin ayrı-ayrılıqda, özünün ifa tərzi baxımından yadda qalan milli rəqslərimizin inkişafı ilə bağlıdır.*

*Xalqımızın adət-ənənəsini, məişətini, estetik zövqünü, qəhrəmanlığını, sevincini və s. özündə təcəssüm etdirən xalq rəqsləri tarixin bütün dövrlərində çox sürətlə inkişaf etsə də onların toplanması və araşdırılmasında görülən işlər qənaətbəxş olmamışdır. Bu səbəbdəndir ki, daha qədim tarixə malik olan bəzi rəqslərimiz yaddaşlardan silinmək təhlükəsindədir. Bunun üçün qədim xalq rəqslərimizin toplanması, tədqiq olunması və nəhayət gələcək nəslə çatdırılması işi bundan sonra da davam etdirilməlidir.*

*Rauf Bəhmənlinin "Azərbaycan Xalq Rəqsləri" adlı kitabı haqqında söz demək mənim üçün çox xoşdur. Sevindirici haldır ki, gözəl ifaçı olmağı ilə yanaşı folklorçuluğa meyl göstərən Rauf Azərbaycanın ayrı-ayrı bölgələrində olmuş, bir çox xalq ifaçıları ilə görüşmüş və nəticədə 150 Azərbaycan xalq rəqs nümunəsini toplamaqla böyük və məsuliyyətli bir işin öhdəsindən gəlmişdir.*

*Azərbaycan xalq rəqslərinin yaranma tarixi və ifa tərzi ilə maraqlanan Rauf 1996-cı ildə mənə müraciət edəndə, doğrusu çox sevindim. Çünki milli rəqslərimizin toplanmasına ehtiyac vardı. Bu işdə böyük məmnuniyyətlə ona öz köməkliyimi göstərdim. Bu mənim həm sənətkarlıq, həm də vətəndaşlıq borcum idi. Məni sevindirən başqa bir cəhət də budur ki, xalqımızın folklorunu, Azərbaycanın milli rəqslərini arayıb üzə çıxarmaq, onların yaranma tarixini və digər ifadə üsullarını təhlil etmək məhz gənc nəslin öhdəsinə düşür. Deməli, Azərbaycanın milli musiqi mədəniyyəti etibarlı əllərdədir."*

Milli rəqslərimizin düzgün nota yazılması onların ifası baxımından, musiqi dilinin sadə və aydın ifadə olunması cəhətdən böyük yaradıcılıq məharəti tələb edirdi. Bu səbəbdən Bakı Musiqi Akademiyasının dosenti, hamımızın sevimlisi bəstəkar **Elnarə Dadaşovaya** müraciət olunmuşdur. Elnarə xanım rəqslərin not yazısını nəzərdən keçirmiş və öz dəyərli məsləhətlərini bildirmişdir. Məcmuə haqqında çox yüksək fikirdə olan bəstəkarın ürək sözlərini bilmək daha maraqlıdır:

*"Azərbaycan xalq rəqslərinin çox qədim tarixə malik olması faktı danılmazdır. Qobustanın qayaüstü rəsmlərində əl-ələ verib rəqs edən insan*

*təsvirləri Azərbaycan rəqsinin qədim tarixini bütün dünyaya bəyan edir. Tarix boyu rəqslərimizin Azərbaycan musiqi mədəniyyətinin inkişafındakı rolunu həqiqi mənada dəyərləndirmək, qoruyub saxlamaq, gələcək nəsillərə olduğu kimi çatdırmaq biz musiqiçilərin və xoreoqraf-rəqqasların borcudur.*

*Rauf Bəhmənli xalq arasında peşəkar musiqiçilərin ifasından topladığı 150 xalq rəqsini nota köçürüb. Not yazısında rəqslərin musiqi dili çox aydın, sadə və yadda qalan tərzdə ifadə olunmuşdur. Çox zəngin alınan bu toplu həm bəstəkarlar, həm də qədim xalq rəqslərinin tədqiqatçıları üçün əsl tapıntı, əvəzsiz mənbədir.*

*Rauf Bəhmənlinin Bakı Musiqi Akademiyasında təhsil aldığı illər mənim xatirimdədir. Ona dərs dediyim illərdə özünün ciddiliyi və peşəkarlığı ilə tələbə həmkarlarından seçilərdi. Özünə qarşı çox tələbkar, təvazökar insan kimi yadda qalan Rauf bu nailiyyətlərinə görə biz müəllimlərin hörmətini qazanmışdır. Mənim ona arzularım budur ki, yorulmadan xalqımızın maariflənməsi yolunda əzmlə çalışsın, bundan da dəyərli məcmuələr, elmi araşdırmalar üzə çıxarsın. Bu işlər üçün onda həm qabiliyyət, bacarıq, həvəs, həm də əsl azərbaycanlı iradəsi var."*

Azərbaycan folklor musiqisinin ən geniş yayılmış növlərindən sayılan xalq rəqslərimizin toplanmasında, musiqi dilinin aydın ifadə olunmasında, rəqslərin oyun tərzi və yaranma tarixi haqqında məlumatların əldə olunmasında və ən nəhayət kitabın işıq üzü görməsində böyük zəhməti olan sənətkarlarımıza öz dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm.

*Rauf Bəhmənli*

# AZƏRBAYCAN XALQ RƏQSLƏRİNİN İNKİŞAFI TARİXİNDƏN

Azərbaycan xalq musiqisi çoxəsrlik tarixə malikdir. Şifahi ənənəvi sənət kimi öyrənilən folklor musiqimiz əsrlərdən bəri inkişaf etdirilmiş, yeni çalarlarla zənginləşdirilmiş, istedadlı musiqi ifaçılarımız tərəfindən nəsildən-nəslə ötürülərək bu günə kimi qorunub saxlanılmışdır.

Azərbaycan xalq musiqisinin çox geniş yayılmış növlərindən biri də rəqslərdir. Mədəniyyət incilərimizdən sayılan rəqs sənəti qədim dövrlərdən zəmanəmizə kimi yaşayaraq xalqımızın adət-ənənəsini, insanların ictimai həyat tərzini, məişətini, estetik zövqünü özündə əks etdirmişdir.

Azərbaycan xalq rəqslərinin dərin kökləri haqqında bizə bir sıra mənbələr, tarixi ərazilər və arxeoloji qazıntılar mühüm məlumatlar açıqlayır. Məsələn, Qobustan ərazisindəki qayaüstü təsvirlər, əzəmətli "qaval-daş", Naxçıvan ərazisində Gəmiqaya dağındakı şəkillər sübut edir ki, rəqslərimizin tarixi çox qədimdir. Arxeoloji qazıntılar, tarixçilərimizin illərlə apardıqları elmi axtarışlar Azərbaycanda mərasim rəqsi sayılan **"Yallı"**nın yaranma tarixini eramızdan əvvəl V minilliyə aid edir.

Tarixdən məlum olduğu kimi uzun əsrlər boyu Azərbaycanda atəşpərəstlik hökm sürmüşdür. Odun gücünə inanan ibtidai insanlar müxtəlif mərasimlərlə bağlı tonqallar yandırar, odun üstündən tullanar, dəstə-dəstə, qrup halında tonqal ətrafında dövrə vurar, əl-ələ verib müxtəlif mahnı və rəqslər ifa edərmişlər. Bu adət-ənənə indi də icra olunur. Keçmişdə günəşi, ayı, küləyi, odu və suyu müqəddəs sayan insanlar indi də baharın (Novruzun) gəlişini təntənə ilə qeyd etmək üçün bayram gününə kimi dörd çərşənbənin (su, od, torpaq, külək) hər birində tonqallar qalayır, əl-ələ verib od ətrafında dövrə vuraraq yallı gedirlər. Heç təsadüfi deyil ki, Azərbaycanda "Yallı"nın 200-ə yaxın növü vardır. (Naxçıvanda 100-dən çox, Şəkidə 80-ə yaxın).

Qərinələr ötdükcə insan təfəkkürünün sürətlə inkişafı, bəşər tarixində baş verən mürəkkəb proseslər insanların dünya görüşünün zənginləşməsinə, xalqın həyatında müxtəlif dövrlərlə bağlı yeni-yeni ənənələrin yaranmasına gətirib çıxarır. Din uğrunda, hakimiyyət uğrunda əsrlərlə aparılan qanlı müharibələr. mərd igidlərimizin döyüş meydanlarında göstərdikləri qəhrəmanlıq,

feodal dövrünün özünəməxsus qanunauyğunluqları, Azərbaycan ərazisindəki xanlıqlar, saray personajları, at yarışları, pəhləvanların, kəndirbazların müxtəlif tamaşaları, toy mərasimləri, bir çox bayram və el şənlikləri rəqslərimizin yaranmasına çox böyük təsir göstərmiş və onların əsas mövzusuna çevrilmişdir. Tarixi hadisələrin bu cür ardıcıl gedişatı ayrı-ayrı dövrlərdə müxtəlif adda, rəngarəng, bir-birindən gözəl musiqiyə malik yeni rəqslərin meydana gəlməsinə səbəb olmuşdur.

Oxucularımıza təqdim etdiyimiz bu məcmuə 150 Azərbaycan xalq rəqsinin not musiqisini özündə əks etdirir.

## AZƏRBAYCAN XALQ RƏQSLƏRİNİN ADLARININ YARANMASI HAQQINDA

Müxtəlif xarakterə, oyun tərzinə, mövzu və məzmuna, aydın musiqiyə malik olan Azərbaycan xalq rəqsləri adlarının mənasına görə bir neçə qrupa bölünür:

I Azərbaycanın tarixi ərazilərinin adları ilə bağlı rəqslər.
II Gül-çiçək, bitki adları ilə bağlı rəqslər.
III Daş-qaş, zinət və bəzək əşyalarının adları ilə bağlı rəqslər.
IV Əmək və təsərrüfatla bağlı məişət rəqsləri.
V Qəhrəmanlıq və igidlik timsallı rəqslər.
VI Bayramlar və el şənlikləri ilə bağlı rəqslər.
VII Müxtəlif mərasimlərlə bağlı rəqslər.
VIII İnsan adları ilə bağlı rəqslər.
IX Məzəli rəqslər.

I. Azərbaycanın hər yerində xalq rəqslərimiz sevilə-sevilə ifa olunur. Bu rəqslərdən hər biri müəyyən dövrdə, hansısa bir tarixi ərazidə yaranmışdır. Bəzi rəqslər yarandığı ərazinin adı ilə, bəziləri isə bu ərazilərdə olan müəyyən yer *(qala, çay, bulaq, dərə, təpə və s.)* adları ilə adlandırılmışdır.

Məcmuəyə 31 belə rəqs daxildir:

*"Azərbaycan", "Dilican", "Qafqazı", "Tiflisi", "Nuxa/Şəki", "Naxçıvanı", "Uzundərə", "Ənzəli", "Şamaxı", "Şağani", "Əsgəranı", "Qazağı" (2 variantda), "Bakı", "Sabirabadı", "Aşxabadı", "Şərur", "Qusar-çay", "Çanax qala", "Məhərrəmkənd", "Qars", "Kömürtəpə", "Çay dərəsi", "Muğan bulağı", "Şuşa", "Dağıstan", "Çıraq qala" (2-variantda), "Dərbəndi", "Əndican", "Dəhnə".*

Bu adları çəkilən rəqslərdən bəzilərinin tarixi ərazisi bizə çox tanışdır. Çünki bu adlar Azərbaycanda hansısa bir bölgənin, rayon mərkəzinin adıdır. Lakin elə rəqslər də var ki, onların adları qonşu dövlətlərin yaşadığı əraziləri ilə bağlıdır.

Yuxarıda adları çəkilən bəzi rəqslər haqqında qısa da olsa məlumat verməyi özümüzə borc bilirik.

**"Ənzəli" (№ 30)** --- hal-hazırda Cənubi Azərbaycan ərazisində böyük liman şəhərinin adıdır. Qədimdə bu şəhər Pəhləvi adı ilə tanınmışdır.

**"Məhərrəmkənd" (№ 83)** — Dağıstan ərazisində rayon mərkəzinin adıdır.

**"Çanax qala" (№ 82)** — İstanbulda çox tanınmış qala adıdır.

**"Dəhnə" (№ 150)** — Şəkidə kənd adıdır. Kənd böyük olduğundan iki

yerə bölünmüşdür: Aşağı Dəhnə, Yuxarı Dəhnə.

**"Aşxabadı" (№ 66)** — Türkmənistan Respublikasının paytaxt şəhərinin adıdır.

**"Əndican" (№ 128)** — Özbəkistan Respublikasının ərazisində yerləşən Fərqanə vadisində şəhər adıdır.

**"Əsgərani" (№ 45)** — Dağlıq Qarabağ ərazisində Şuşa ilə Xankəndi arasında rayon adıdır.

**"Kömürtəpə" (№ 88)** — Bakı yaxınlığında geniş bir ərazini tutan təpə adıdır. Burada çoxlu neft buruqları olduğundan torpaq mazutu canına çəkmiş, təpəni qara rəngə boyamışdır. Ona görə də bu ərazi Kömürtəpə adlanmışdır.

**"Şağani" (№ 40)** — Bakı kəndlərindən birinin adıdır. Toy, bayram əhval-ruhiyyəli bu rəqs 20-ci illərdən başlayaraq "Şampanı" kimi də adlanmışdır.

**"Dilican" (№ 3)** — Göyçə mahalında Göyçə gölünün şimalında rayon mərkəzidir.

**"Uzundərə" (№ 26)** — Azərbaycanın Dağlıq Qarabağ ərazisində Ağdamla Göytəpə kəndi arasında dərə adıdır. Elat adlanan köçəri tayfa mal-qarasını yaylağa çıxararkən məhz bu dərədən keçərmiş. Dərənin yolu uzun olduğundan köçərilər yolüstü burada dincələrmişlər.

**II.** Azərbaycanın çox gözəl təbiəti var. İstər coğrafi mövqeyi, iqlimi, istərsə də suyu, torpağı Vətənimizi təkrarolunmaz, əsrarəngiz bir diyara çevirmişdir. Bu cənnətin qapılarını üzümüzə açan gözəlliklərdən biri də təbiətin bizə bəxş etdiyi bitki və gül-çiçək aləmidir.

Bu ürəkaçan gözəlliklərdən həzz alan xalqımız hər gülün, hər çiçəyin adına rəqs yaratmışdır. Oxucularımız məcmuədə belə rəqslərdən 15-i ilə tanış olacaqlar. Bu rəqslər aşağıdakılardır:

*"İnnabı", "Darçını", "Heyva gülü", "Lalə", "Qızıl gül", "Bənövşə", "Novruzgülü", "Reyhanı", "Alma gülü", "Alça gülü", "Yasəməni", "Mixəyi", "Məxməri", "Pambığı", "Dağ çiçəyi".*

Öz dövrünün ən istedadlı musiqiçilərindən olan, zurna və balamanın mahir ifaçısı **Əli Kərimov (1874 - 1962)** haqqında oxucularımıza məlumat verməyi özümüzə borc bilirik. Belə ki, bu ölməz sənətkarın yaratdığı rəqsləri Azərbaycanda uşaqdan böyüyə hamı sevir. Bu el havalarından məcmuəyə aşağıdakı rəqsləri daxil etmişik:

*"Bənövşə"(№ 22), "Çəməni"(№ 141), "Yasəməni"(№ 71), "Heyva gülü"(№ 12), "Alça gülü"(№ 68), "Alma gülü"(№ 42), "Mehribanı" (№ 149), "Səlvəri"(№ 96), "Çəhrayı"(№ 103), "Sima"(№ 118), "Məxməri"(№ 135), "Əfruzə"(№ 94).*

Şamaxının Kalva kəndində anadan olmuş Əli Kərimov gözəl Şirvan torpağının suyundan dadmış, havasını udmuş, təbiətin gözəlliyi qarşısında duruş gətirə bilməyib öz yaratdığı rəqslərdə gülləri, çiçəkləri tərənnüm etmişdir.

**III.** Qədim dövrlərdən bəri bahalı daş-qaşlar, eləcə də qiymətli metallardan hazırlanmış zinət əşyaları Azərbaycan xalqının məişətində çox geniş istifadə olunmuşdur. Qadınların istifadə etdikləri bu bəzək əşyaları onların daha da yaraşıqlı, cazibəli görünməyinə təsir göstərmişdir. Feodal dövrünün saray xanımları isə aşağı təbəqədən olan qadınlardan seçilmək üçün çox qiymətli zinət əşyalarından istifadə edərdilər. Üstü cürbəcür daş-qaşlarla bəzədilmiş silsilələr, cıqqa və sırğalar, sinəbəndlər, çəçik və qolbağlar, bilərzik və bazubəndlər, üzüklər və kəmər belə bəzəklərdəndir. Qadın gözəlliyini və milli geyimlərimizin ornamentini əks etdirən bəzək əşyaları ilə bağlı xalqımız bir sıra rəqslər yaratmışdır. Onlardan bir neçəsi məcmuəyə daxil edilmişdir:

*"Brilyantı"(№ 18), "Çervon"(№ 19), "Yaqutu"(№ 23), "Mirvari" (№ 44), "Onluq" (№ 58), "Mərcanı"(№ 85), "Almazı"(№ 133), "Zümrüdü"(№ 145).*

Bu rəqslərdən bəziləri haqqında qısa məlumat veririk.

**"Çervon"** - "Qızıl pul" adıdır. Orta templi qadın rəqsidir.

**"Mirvari"** - boyuna taxılan inci adıdır. Tez tempə malik qadın və kişilərin rəqsidir. Azərbaycanın bəzi bölgələrində rəqsin başqa bir adına da rast gəlirik. Rəqs *"Çatdadım"* kimi də tanınır. Bu söz yorulmaq mənasında işlədilib. Yaranma tarixini belə söyləyirlər ki: artıq yaşlı nəslin nümayəndəsinə çevrilmiş, lakin cavanlığından çox gözəl rəqs edən kənd sakinlərindən biri hələ də toy şənliklərində ifa olunan tez tempə malik rəqsləri sürətlə, yorulmadan ifa edərmiş. Çox cavanlar onu yormağa çalışmışlar, lakin heç kəs bunu bacarmamışdır. Qocanı oyunda üstələməyə söz verən gənclərdən biri axırda o qədər yorulur ki, rəqsi saxlatdırıb deyir: - "Adə, dayan! Mən çatdadım ki!.."

**"Onluq"** - "Qızıl pul" adıdır. Qadın geyimlərindən "kürdü"nün yaxasına vurulan zinət əşyasıdır. Hal-hazırda "Süleymanı" kimi tanınmış bu rəqs "Onluq" adını itirmişdir. Qədimdə çox populyar olan "Onluq" rəqsini dahi bəstəkarımız Üzeyir Hacıbəyov özünün "Arşın mal alan" operettasında "Süleyman ilə Asyanın rəqsi" kimi istifadə etmişdir. Sonralar bu əsər bütün dünyada məşhurlaşmış, həmin bu rəqs isə not yazısında *"Asyanın rəqsi"*, el arasında isə *"Süleymanı"* kimi şöhrət tapmışdır.

**IV.** Tarixdən bizə məlumdur ki, uzaq keçmişdə Azərbaycan ərazisində çoxlu sayda qədim tayfalar yaşamışdır. Bu tayfalar köçəri həyat tərzi sürmüş, heyvandarlıqla məşğul olmuş, öz yaşayışını təmin etmək üçün mal-qarasını yayda yaylağa, qışda qışlağa aparmaqla təsərrüfatını genişləndirmişdir. Xalq

rəqslərimizdən *"Tərəkəmə"(№ 9), "Köçəri"(№ 142), "Ovşarı"(№ 131)* məhz bu qədim tayfaların adları ilə bağlıdır. Tərəkəmələrin həyat tərzini əks etdirən digər rəqslər daha maraqlı məzmuna malikdir. Kollektiv təsərrüfatla bağlı süd sağımı, yun qırxımı, eləcə də qoyunçuluğun inkişafında çobanların əməyi bu rəqslərdə bütövlüklə öz əksini tapmışdır. *"Xançobanı"(№ 7), "Keçiməməsi"(№ 46), "Çobanlar" (№ 57), "Çobanı"(№ 109), "Kolxozu"(№ 36)* havaları belə rəqslərdəndir.

**"Köçəri"** — qədim tayfa adıdır. Rəqsin musiqisi — yallı musiqisidir. İki hissəlidir. 1-ci hissə orta, ikinci hissə isə tez tempdə ifa olunur. Bu yallı musiqisi Naxçıvan ərazisində yaransa da, indi Azərbaycanın hər yerində çox sevilən rəqs kimi mövcuddur.

**"Ovşarı"** — qədim tayfa adıdır. Musiqisi, əsasən yallı musiqisidir. Hal-hazırda Ağcabədi rayonu ərazisində "Ovşarlar" adlanan xalq yaşayır.

**"Çobanlar"** — kütləvi xalq rəqslərindəndir. Rəqsin oyun tərzi cəld, ritmik hərəkətlərlə müşayiət olunur. Rəqsdəki çobanların güləşmə və çomaq döyüşü fraqmentləri sağlamlığın, gümrahlığın rəmzidir. Rəqsin əsas atributları çobanların əynindəki qoyun dərisindən olan gödəkçə, çoban papağı, tütək və çomaqdır. Rəqs temperamentli hərəkətlərlə yanaşı məzəli hərəkətlərlə də zəngindir.

**"Xurcun"** — xalqın məişətində istifadə olunan vasitələrdən birinin adıdır. Çox maraqlı yaranma tarixi vardır. Kənddə yaşayan qoca bir kişi yoldaşı ilə birgə hamı kimi təsərrüfatla məşğul olur, əldə etdiyi məhsulu satıb, özlərini dolandırırdılar. Yağı, pendiri ata yükləyib xurcunlarla dolu bazara yollanan kişi mallarını satıb evə qayıdanda boş xurcunu əlində oynada-oynada yoldaşına şad xəbər gətirir.

V. Azərbaycan xalqı qəhrəman xalqdır. Əsrlər boyu hücum və basqınlara məruz qalan xalqımız heç zaman ruhdan düşməyərək bu basqınlara mərdliklə sinə gərmiş, qəhrəmanlıq göstərmiş, gücünü, qüvvəsini səfərbər edib son nəticədə döyüşdən qalib çıxmışdır. Azərbaycanın azadlığı və istiqlaliyyəti uğrunda canını qurban verən Cavanşir, Babək, Koroğlu, Nəbi kimi xalq qəhrəmanlarımız vardır. Düşmən üzərində çalınan hər bir qələbə, zəfər böyük xalq bayramlarına çevrilmişdir. Bu tarixi yaşatmaq üçün xalqımız müxtəlif rəqslər yaratmışdır. *"Cəngi", "Qəhrəmani", "Beşaçılan"* və s. belə rəqslərdəndir.

**"Cəngi" (№ 89)** — döyüş meydanındakı hərəkətləri təsvir edən əsl cəngavərlik rəqsidir. Musiqi həcmi 2/4 olan "Cəngi" oyun havasından pəhləvanların yarışında, cıdır meydanında da geniş istifadə edilir. Bu rəqsi əsasən, zur-

naçılar dəstəsi ifa edir. Qılınc və qalxanlarla ifa olunan bu kütləvi rəqs qədim Azərbaycan rəqslərindəndir.

**"Qaytağı" (№ 140)** — böyük tarixə malik olan bu rəqs Qafqaz xalqlarının sevimli rəqslərindən olub onların məişətində özünə layiq yer tutmuşdur. Xalqımıza məxsus mübarizlik, cəsarət, cəngavərlik və s. "Qaytağı" rəqsində bütünlüklə öz əksini tapmışdır. Rəqsin ahəngi, ritmi Dağıstan ərazisindəki *"Ləzginka"* və *"Kabardin"* rəqsləri ilə oxşardır.

**VI.** Azərbaycanlılar öz adət-ənənələrinə sadiq qalaraq müxtəlif bayramları və el şənliklərini qeyd edir. Xalqımızın təntənə ilə qeyd etdiyi bayramlardan biri də Novruz bayramıdır. Bayrama qabaqcadan tədarük görülür. Hər bir evdə bayram şirniyyatı hazırlanır, xonça bəzədilir, yumurta boyadılır, səməni böyüdülür. Bayram günü küsülülər barışır, qonşular, qohumlar bir-birinin evinə bayram hədiyyələri aparırlar.

Ayı oynatmaq, xoruz döyüşdürmək, zər atmaq Novruz bayramına, xas oyunlardandır. Kəndirbazların və pəhləvanların xalq qarşısındakı çıxışları, at yarışları, zorxanalar və bir sıra başqa əyləncəli oyun tamaşaları bu el şənliyini daha da yadda qalan edir. Bu mərasimlə bağlı yaranmış rəqslər indi də xalq arasında çox sevilir. Məcmuəyə belə rəqslərdən 9-u daxildir: *"Səməni" (№ 60), "Kəndiri"(№ 132), "Cıdır"(№ 113), "Atlanma"(№ 129), "Zorxana/Cütçü"(№ 130), "Şalaxo"(№ 47), "Duy-duy" (№ 123).* Bu rəqslərdən bəziləri haqqında oxucularımıza qısa məlumat veririk.

**"Zorxana"** — güc sınama yarışları üçün nəzərdə tutulmuş yer adıdır. Zorxanaya əsasən gənc igidlər, pəhləvanlar yığışar, bir-birinin qarşısında güclərini sınayar, öz məharətlərini, müxtəlif cür ağır çəkili əşyalarla hərəkətlərini nümayiş etdirərdilər.Hal-hazırda rəqs *"Cütçü"* kimi də adlanır.

**"Şalaxo"** — əyləncəli oyun tamaşadır. Kəndə ayı oynadanlar gələndə kiçikdən böyüyə kimi hamı bu tamaşaya baxmağa tələsərdilər. Ayı başını yerə qoyub tez-tez mayallaq vurar, iki ayağı üstə qalxıb fırlanardı. Tamaşa edənlər isə əl çalar, aranı daha da qızışdırardılar. Sonra yiyəsi ayının belinə şələni bağlayar və daşımağı əmr edərdi. Ayının şələ daşımağını görən tamaşaçılar bir ağızdan "Ay şələküm - mayallaküm" sözlərini deyərdilər. Şalaxo və ya şələxo sözlərinin mənası bu əhvalatla bağlıdır.

**VII.** Xalqımızın çox dəbdəbəli şəkildə keçirdiyi qədim adət-ənənəmizlə bağlı ən geniş yayılmış məişət mərasimlərindən biri də - toydur. Toy iki sevən gəncin yeni yaradacaqları müstəqil ailə təməlinin rəmzidir. Azərbaycan toylarında kiçikdən böyüyə kimi hamı rəqs edir. Hərə öz istədiyi rəqsi sifariş

edib oynayır. Lakin bəylə gəlinin şərəfinə elə rəqslər yaranmışdır ki, onların musiqisini eşidən hər kəs bilir ki, yaxınlıqda toydur. Belə rəqslərdən bəziləri məcmuəyə daxil edilmişdir: *"Toy"(№ 27), "Vağzalı"(№32), "Yaylıq" (№ 63), "Gəlin havası" (№ 86).*

**"Yaylıq"** — orta templi kişi rəqsidir. Qədimdə *"Tapança"* kimi adlanan bu rəqs sonralar "Yaylıq", hal-hazırda isə *"Qoçəli"* kimi şöhrət tapmışdır. Rəqsi əsasən masabəyi (tamada) oynayır. Toy şənliyini idarə etmək çox böyük məsuliyyət tələb etdiyindən bu vəzifə elə adama həvalə olunur ki, kiçikdən-böyüyə hamı ona hörmət etsin, onun sözündən çıxmasın. Çünki, bəzi toylarda oynamaq üstündə mübahisələr düşərdi. Keçmişdə masabəyi dava düşəcəyini görüb havaya silahdan güllə açardı, hamı sakitləşərdi. "Tapança" adı buradan götürülmüşdür. Sonrakı illərdə masabəyinin əlində silah yox, çubuq olardı. O səs-küy salanları çubuqla hədələyər, məclisdən çıxarardı. Toyda hamıdan seçilsin deyə masabəyinin qoluna qırmızı yaylıq bağlayardılar. Buna görə rəqsin adı "Yaylıq" idi. Rəqsə "Qoçəli" adı isə Bakı kəndlərində verilib ki, bu da qoçu ləqəbi ilə tanınan Əlinin adı ilə bağlıdır.

**VIII.** Azərbaycan oyun havaları içərisində insan adları ilə bağlı rəqslər çoxluq təşkil edir. Onlardan bəziləri rəqsi ifa edən rəqqasın və ya rəqqasənin adı ilə bağlıdır. Bir qisim rəqslər öz yaradıcılarının adlarını daşıyır. Digərləri isə rəqs müəlliflərinin oğlunun, qızının və ya nəvəsinin adlarını qəbul etmişdir. Aşağıda adları çəkilənlər belə rəqslərdəndir:

*"Nabat xanımı", "Dilşadı", "Bağdagülü", "Züleyxa", "Şəlalə", "Ulduz", "Xanımı", "Mirzəyi", "Hacıcan", "Xalabacı", "Zibəndə", "Sevinc", "Bəsti", "Balabəyi/Niluferi", "Qorxmazı/Solmazı", "Əfruzə", "Qaryağdı", "Səlvəri", "Təhməzi", "Tamara", "Gülgəzi", "Balışı", "Sima", "Şamama", "Leyli pəri", "Musaxanı", "Ayşadı", "Mehribanı".*

**"Gülgəzi" (№ 116)** — ən məşhur qadın rəqslərindəndir. Rəqsin musiqisini ney çalan naxçıvanlı **Həsənəli 1904 - 1905**-ci illərdə yaradıb. Gülgəz Həsənəlinin yoldaşının adıdır. Rəqsi də onun şərəfinə "Gülgəzi" adlandırıb.

**"Mirzəyi" (№ 56)** — qədim rəqslərdəndir. Qarabağlı ney çalan Mirzə tərəfindən təqribən 1860 - 1870-ci illərdə yaradılıb.

**"Əfruzə" (№ 94)** — zurna havasıdır. Rəqsin yaradıcısı **Əli Kərimovdur**. Əfruzə nəvəsinin adıdır. Onun şərəfinə belə adlandırılmışdır.

**"Tamara" (№ 112)** — təqribən 1916 - 1917-ci illərdə Bakıda yaranmış rəqsdir. Onun adı toylarda xalq rəqslərimizi ifa edən məşhur salyanlı rəqqasə **Tamaranın** şərəfinə verilmişdir. Rəqs iki hissəlidir.

**IX.** Məzəli əhvalatlarla bağlı yaranan rəqslər bütün dövrlərdə həvəslə ifa olunmuşdur. Bu rəqslər bir növ xalqı əyləndirir, ağır günlərin unudulmasına qismən də olsa təsir göstərir. Bu rəqslərdən bəzilərini oxucularımıza təqdim edirik:

*"Naz eləmə"(№ 4), "Kəsmə"(№ 5), "Naz-nazı"(№ 13), "Həngamə mey"(№ 143) "Qıtqılıda"(№ 24), "Lətifə"(№ 33), "Tapp elədi/Sürüşdüm-düşdüm"(№ 51), "Matanı"(№ 67), "Cığ-cığa"(№ 91), "Kim-kimə" (№ 100).*

**"Kəsmə"** — ən qədim rəqslərdən biridir. Komik rəqslərdən sayılan "Kəsmə" əsasən kişilər tərəfindən oynanılır. Tez tempə malik olan bu rəqs üçün atılma, tullanma, sıçrama hərəkətləri səciyyəvidir. Rəqsin müəyyən bir yerində musiqi kəsilir, sonra yenidən davam edir. Rəqqas bu pauzada sağ ayağının diz hissəsini yerə toxundurur, sonra yenidən qalxaraq oyunu davam etdirir.

**"Qıtqılıda"** — rəqsin ritmini imitasiya edən səslərdən (tra-ta-ta-ta) ibarətdir. Rəqsdə ritmə uyğun tərzdə əl çalma sədaları altında bu və ya digər surəti təsvir edirlər. Onlardan biri utancaq, cəsarətsiz gəlindir. Utana-utana rəqs edir, qorxa-qorxa yan-yörəsinə baxır ki, birdən qaynanası gələr. Acıqlı və deyingən qaynana gəlib çıxır. Gəlin dövrədəkilərin arasında gizlənir. Qaynana yöndəmsiz, ağır tərpənən komik hərəkətlərlə rəqs edir. Rəqsin ikinci adı "*Sənəmi*"dir.

**"Naz eləmə"** — çox qədim rəqslərdəndir. Əsasən, oğlanla qızın (duet) birgə rəqsidir. Şən əhval-ruhiyyəli bu rəqs sevgiyə həsr olunan məzəli rəqslərdəndir. Oğlan qıza aşiq olur, ürəyini açmaq üçün imkan gözləyir. Qız isə utanır, üzünü oğlandan gizlədir. Lakin oğlan imkan tapıb rübəndi qızın üzündən çəkib ürəyini ona açır.

Azərbaycan şifahi-professional musiqisinin aparıcı janrı olan — muğamlar xalq rəqslərimizlə sıx bağlıdır. Belə ki, bir sıra rəqslər muğam dəsgahlarında şöbə və guşələr arasında rəng və ya diringi kimi işlədilir.

Məcmuədə verilmiş *"Mərcanı"*, *"Almazı"*, *"Mixəyi"*, *"Bəxtəvəri"* rəqsləri rəng kimi, *"Dilican"*, *"Qafqazı"*, *"Aşxabadı"*, *"Dərvişi"*, *"Dərbəndi"* rəqsləri isə diringi kimi istifadə edilir.

Elə rəqslər də vardır ki, ayrı-ayrı dövrlərdə onlara söz, mətn əlavə olunaraq mahnı kimi ifa olunmuşdur. *"Gülgəzi"*, *"Kəsmə"*, *"Şuşa"* və *"Dağıstan"* rəqsləri belə havalardandır.

Muğam dəstgahlarında "dəraməd" kimi istifadə olunan xalq rəqslərimiz də vardır. *"Şəlalə"*, *"Həngamə mey"*, *"Səlami"* bu rəqslərdəndir.

Ümumiyyətlə, professional musiqidə xalq rəqslərimizin rolu çox böyükdür. Azərbaycan bəstəkarlarının demək olar ki, hamısı xalq musiqimizdən, rəqslərimizdən qidalanmışlar. İstər opera, balet musiqisində, simfonik əsərlərdə, incəsənətin digər sahələrində, kino-musiqisində rəqslərimizdən geniş istifadə edilir. **Əfrasiyab Bədəlbəyli** "Qız qalası" baletində "*Şalaxo*" rəqsindən istifadə etmişdir. "Arşın mal alan" kinofilmində "*Yaqutu*", "*Onluq*", "*Mehman*" kinofilmində "*Heyva gülü*", "Yeddi oğul istərəm" də "*Zorxana*" rəqsi, "O olmasın, bu olsun" da "*Mirzəyi*", "*Uzundərə*", "*Darçını*", "Əhməd haradadır" kinofilmində üzümçülər rəqsi kimi verilmiş "*Səməni*" və bir çox başqa rəqslər dediklərimizin bariz təcəssümüdür.

Azərbaycanda xalq rəqslərimizin toplanmasında və nota köçürülməsində bir çox dahi şəxsiyyətlərimizin əməyini qeyd etməliyik. **Səid Rüstəmovun** "Azərbaycan Rəqs Havaları" məcmuəsində 30 xalq rəqsinin not yazısı verilmişdir. Bu rəqslərin hamısı bizim oxuculara təqdim etdiyimiz məcmuəyə daxil edilmişdir. Lakin not yazılarında müxtəliflik var. Bu rəqslərin yenidən ifa olunub düzgün şəkildə yazılması işində köməyi olan musiqiçilərimizə öz minnətdarlığımı bildirirəm.

Başqa bir böyük şəxsiyyətimiz **Bayram Hüseynlidir**. Uzun illər xalq rəqsləri ilə məşğul olan, bir sıra rəqs incilərimizin toplanmasına nail olan Bayram Hüseynli 1965 - 1966-cı illərdə "Azərbaycan Xalq Rəqsləri" adlı 2 dəftər çap etdirmişdir.

Azərbaycan yallılarının toplanmasında böyük xidmətləri olan **Əhməd İsazadə** və **Nəriman Məmmədovun** adını çəkməyə bilmərik. Onların birgə əməyi nəticəsində 1975 və 1984-cü illərdə "Xalq mahnıları və oyun havaları" adlı iki kitab işıq üzü görmüşdür.



# 1. AZƏRBAYCAN
# AZERBAIJAN





## 2. İNNABI
## INNABI



## 3. DİLİCAN
## DILIJAN



Q: How to play faster?
How fast?

## 4. NAZ ELƏMƏ
## NAZ ELEME




## 5. KƏSMƏ
## KESME





“Naz eləmə” rəqsi, 1957-ci il
Solistlər: Xalq artistləri, Ümumdünya festivallarının laureatları Əlibaba Abdullayev və Əminə Dilbazi

## 6. ALTI NÖMRƏ
## ALTI NOMRE



# 7. XANÇOBANI
# KHANCHOBANI



# 8. QAFQAZI
# GAFGAZI



# 9. TİFLİSİ
# TIFLISI



## 10. TƏRƏKƏMƏ
## TEREKEME

*Moderato*





"Tərəkəmə" rəqsi.
Solist: Xalq artisti Əminə Dilbazi

## 11. DARÇINI
## DARCHINI




## 12. HEYVA GÜLÜ
## HEIVA GULI



## 13. NAZ – NAZI NAZ – NAZI

Sol Çikurgah

*Allegretto*



## 14. ON DÖRDÜ
## ON DORDU



## 15. LALƏ
## LALE



La Segah
Sol - Şur

## 16. NABAT XANIM
## NABAT KHANIM




## 17. NUXA / ŞƏKİ
## NUKHA / SHEKI



# (18) BRİLYANTI
# BRILYANTI



# 19. ÇERVON
# CHERVON




# 20. NAXÇIVANI
# NAKHCHIVANI



## 21. QIZIL GÜL
## GIZIL GUL



Çahargah

## 22. BƏNÖVŞƏ
## BANOVSHA





## 23. YAQUTU YAĞUTU



## 24. QITQILIDA / SƏNƏMİ
## GITGILIDA / SANAMI

*Allegretto*



## 25. XURCUN
## KHURJUN

*Andante*





## 26. UZUNDƏRƏ UZUNDERE

Çahargah

*Moderato*



## 27. TOY TOY

